# Hörmət və ehtiramın əlaməti

## Azərbaycan daha bir mötəbər tədbirə evsahibliyi edir



Bakıda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu davam edir. Forum Azərbaycan hökumətinin təşkilatçılığı, UNESCO, BMT Sivilizasiyalararası Alyansı, ISESCO-nun tərəfdaşlığı ilə keçirilir. Tədbirdə 100-dən çox ölkədən 700-dən çox qonaq iştirak edir. Bakı Forumu ilk dəfə 2011-ci ildə dövlət başçısı İlham Əliyevin təşəbbüsü ilə keçirilib. Bundan sonra forum davamlılıq xarakteri alıb. Forum çərçivəsində qonaqların Azərbaycanın 30 il işğal altında qalan ərazilərinə səfəri də gözlənilir. Tədbir çərçivəsində Ağdam və Şuşada xüsusi panel sessiyasının keçirilməsi də nəzərdə tutulur.

Bakıda keçirilən bu mötəbər forumun əhəmiyyətini dəyərləndirən Milli Məclisin deputatı Anar İsgəndərov "Azərbaycan" qəzetinə açıqlamasında qeyd edib ki, bu beynəlxalq tədbirdə, ilk növbədə, sülh və əməkdaşlıq, qonşu dövlətlər arasında münasibətlər, həmçinin onların iqtisadi əlaqələrinin inkişafına şərait yaradan və mane olan məsələlər müzakirə edilir. Eyni zamanda forumda dünya dövlətlərinin "yaşıl enerji"yə münasibəti, COP-29-a qədər Azərbaycanın üzərinə götürdüyü öhdəliklər ətrafında müzakirələr aparılır.

Bununla yanaşı, işğalın mahiyyəti və işğaldan sonrakı bərpa və quruculuq işlərinin hansı formada aparılması məsələlərinə aydınlıq gətirilir. Bundan başqa, "sülh və əmin-amanlıq üçün daha nə etmək lazımdır?", "iqlim dəyişikliyi ilə bağlı böyük dövlətlərin üzərinə nələr düşür və nə etməlidirlər?" suallarına cavab axtarılır.

A.İsgəndərov bildirib ki, üç gün davam edəcək forumda sülh, dövlətlərarası əməkdaşlıq, qonşu dövlətlərlə münasibətlər və dünya üçün aktual olan digər məsələlərin müzakirəsi nəzərdə tutulub. "Əlbəttə ki, Azərbaycanın belə bir beynəlxalq foruma evsahibliyi etməsi ölkəmizin gücünü göstərir. Bu həm də Azərbaycana olan hörmət və ehtiramın göstəricisidir. Azərbaycan belə tədbirlərin öhdəsindən uğurla gəldiyinə görə dünya dövlətləri də belə bir forumun Bakıda keçirilməsinə razılıqlarını verərək onun işində iştirak edirlər", - deyə o əlavə edib.

Deputat vurğulayıb ki, Qarabağ müharibəsi yüz minlərlə qaçqının ağrılı taleyi ilə bağlı müəyyən məsələlərin müzakirəsinə də ehtiyac yaradıb. Erməni daşnak qüvvələri Azərbaycan torpaqlarının 20 faizini işğal edərkən hər şeydən əvvəl insanlığa düşmən kəsildilər, heç bir günahı olmayan minlərlə sivil insana işgəncə verdilər, öldürdülər, evlərini yağmaladılar, tarixi, dini abidələrə hörmətsizlik etdilər. Ən nəhayət, iki xalq arasında tarix boyu mövcud olan münasibətlər düşmən vəziyyətinə gətirildi. Bugünkü forumda da belə işğalçı müharibələr və istilaların olmaması üçün xalqların hansı addımlar atması, dünyanı fəlakətlərdən qurtarmaq üçün daha nələrə ehtiyac olduğu müzakirə edilir. Müsahibimiz bildirib ki, forum iştirakçılarının böyük əksəriyyəti Ağdamda və Şuşada panel müzakirələrində iştirak edərək həm də həmin ərazilərin işğal dövründəki vəziyyəti və hazırda gecə-gündüz davam edən quruculuq işləri ilə tanış olacaqlar. Bu da onu göstərir ki, Azərbaycan hər gün irəli gedir, böyük nüfuz qazanır, dünyada sülh və əmin-amanlığa mümkün töhfəsini verir.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 2 may, № 89.- S.10.